**Nemət Pənahlı**

## Bir Xəyala Dal

Gəlinlər dul qalıb körpə atasız
Gözəllər sevdasız ana balasız
Mərdlərin olmayır başı bəlasız
Gurla ildırım tək çax vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Qazilər zindanda qolları bağlı
Analar bacılar sinəsi dağlı
Mən dəli-divanə hamı ağıllı
Saplanıb köksümə ox vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Tövbə edib qayıt Haqqın yoluna
Görün düşmüsünüz kimin dalına
Qanlı qan ağlayır sənin halına
Nə yaman gündəsən ah vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Gavurlar əlində qız-gəlin əsir
Zalımın qılıncı məzlumu kəsir
Qalıb dərd əlində xalq əsir yesir
Od vurub yandırıb yax vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Zülmə boyun əymə millət danış din
Bəsdi əcnəbidən yardım diləndin
Tamam əldən gedir namus qeyrət din
Düşmənə aldandın çox vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Ah-nalə qəlbimi yandırıb yaxdı
Namərdin insafı vicdanı, yoxdu
Şerim də fəryaddı amandı ahdı
Yaman günə qaldı xalq vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Oğrular əyrilər kəsir düzləri
Dinlə mənaları oxu sözləri
Gözləyir Qarabağ, Təbriz bizləri
Bayrağı zirvəyə tax vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Bütün millət olub, qaçqın, didərgin,
İnsanlar edilir "mədəni" sürgün,
Yenə də qiyamət qopacaq, bir gün,
Kükrəyib, meydana çıx, vətən oğlu!
Haydı, son döyüşə qalx,vətən oğlu!

Bizi bağışlamaz şəhid ruhları
Ərşə dirənibdi məzlum ahları
Daşqalaq eyləyib bu əclafları
Ölümün gözünə bax vətən oğlu!
Haydı son döyüşə qalxvətən oğlu!

Qisas qiyamətə qalmasın gərək
Olum-ölüm deyib döyüşə girək
Yağı düşmənlərin dərsini verək
Əldən uçub gedir vaxt vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!

Bərabər savaşdıq bu meydanlarda
Azadlıq uğrunda tökdük qanlar da
İgidlər tanınar çətin anlarda
Könüllərdə quraq taxt, vətən oğlu!
Haydı son döyüşə qalxvətən oğlu!

*Nemət* qorxmayıbdı ölümdən, qandan
İstiqlal uğrunda savaşdıq candan
Ölüm də qaçıbdır hər zaman ondan
Şəhidə kəfən də yox vətən oğlu!
Haydı son döyüşə qalx vətən oğlu!